© H.T.Haqverdiyev, 2012

# H.Z.ŞIRVANİNİN ƏSƏRLƏRİNDƏ TARİXİ-COĞRAFİ FİKİRLƏR

**H.T.Haqverdiyev**

*Azərbaycan MEA akad. H.Ə.Əliyev adına Coğrafiya İnstitutu*
*AZ1143, Bakı, H.Cavid prosp., 31*

Məqalədə məşhur səyyah H.Z.Şirvaninin (1780-1838) əsərlərində tarixi-coğrafi fikirlərin qısa elmi xülasəsi verilir. Eyni zamanda onun dünya coğrafiya elminə dair ilkin fikirləri şərh olunur. Müəyyən olunmuşdur ki, məşhur səyyahın iki əsərində («Riyazüs-səyahə» və «Busanüs-səyahə») Yer kürəsinin coğrafiyasına dair zəngin material verilmişdir.

Azərbaycan Şərq ölkələri arasında həmişə özünün yetişdirdiyi alimləri ilə məşhur olmuşdur. Bu cəhətdən orta əsrlər daha çox seçilir. Çünki orta əsrlər Azərbaycanda bir sıra elmlərin, o cümlədən coğrafiya elminin geniş və çoxtərəfli inkişafı dövrü olmuşdur. Onların içərisində ilk dəfə Azərbaycanda kainatın heliosentrik sistemi haqqında fikir yürüdən Şeyx Məhəmmədəli Abu Abdullah Şirvani, böyük coğrafiyaçı-alim Əbubəkr Bərdəyi, tibb akademiyası yaratmış Kafiyyədin Ömər Osman oğlu Şirvani, Yer kürəsinin riyazi ölçülərini hesablamış Məhəmməd Nəsirəddin Tusi və başqaları dünya elmində xüsusi yer tuturlar (Kərəmov, 1977).

Məşhur coğrafiyaçı alim Əbdürrəşad Bakuvi Xristofor Kolumbun qərb yarımkürəsini – Amerika qitəsini kəşf etməsindən və Nikolay Kopernikin heliosentrik sistemi irəli sürməsindən xeyli əvvəl yaşayıb-yaratmışdır. Ona görə də onların tarixi-coğrafi irsləri müasir elm aləmi üçün çox qiymətlidir (Mehrəliyev, 2005).

Dünya səyyahlarının tarixi salnaməsində coğrafi fikir və ideyaları ilə önəmli yer tutan, Yaxın və 0rta Şərq aləmində Hacı Zeynalabdin ibn Axund İskəndər adı ilə tanınan məşhur həmyerlimiz Hacı Zeynəlabdin Şirvaninin həyat və yaradıcılığı böyük maraq doğurur.

O, ömrünün qırx ilini səyahətlərdə keçirmiş, əsərlərində dünyanın coğrafiyasının, onun tarixi-təkamül dinamikasının, coğrafi hadisələrin şərhini vermiş, Ön Asiyanın, Şimali Afrikanın, Cənubi və Cənubi-Şərqi Asiyanın, həmçinin dünyanın bir sıra okean və dənizlərinin təbiətini elmi əsaslarla təsvir etmişdir. Yeri gəldikcə dünyanın coğrafiyasına, xüsusilə müasir materik və qitələrin coğrafi yerləşməsinə, onların təbiətinin coğrafi aspektlərinə dair ilkin fikirlər söyləmişdir. Şəxsi müşahidələr nəticəsində əldə etdiyi zəngin və ilkin coğrafi məlumatları tarixi-coğrafi xülasələri ardıcıl olaraq müxtəlif vaxtlarda yazdığı əsərlərində əks etdirmişdir (Kərəmov, 1977).

Qeyd etmək lazımdır ki, H.Z.Şirvani çoxillik səyahətlərinin məhsulu olan əsərlərinin hamısını ensiklopediya qaydası ilə tərtib etmiş, onlara elmi şərhlər verməyə çalışmışdır.

Məşhur səyyahın qədim coğrafi anlayışlarla zəngin olan ilk böyük əsəri iki hissədən ibarət «Riyazüs-səhayə»dir. Onun birinci hissəsi 1821-1822-ci illərdə Qumşədə, ikinci hissəsi isə 1827-ci ildə Şiraz şəhərində yazılmışdır. Çox maraqlıdır ki, H.Z.Şirvani özünün səyyahlıq sənətini dəyərləndirmək və coğrafiya elminin qloballaşmasına daha geniş üfüqdən yanaşmaq üçün ilk kitabı «Riyazüs-səyahə»nin birinci hissəsini bu sözlərlə başlayır:

Kim ki istər asan ola səfəri,
Qoy oxusun «Riyazüs-səyahə»ni.

Kitab bütövlükdə Yer kürəsinin coğrafi təkamülünə, onun formalaşmasının, ümumi qanunauyğunluqlarının coğrafi aspektlərinə həsr olunmuşdur (A.Quliyev, 1969). Böyük tarixşünas-coğrafiyaçı A.Bakıxanov «Gülüstani-İrəm» əsərində «Riyazüs-səyahə» kitabı haqqında belə yazır: «Həqiqətən bu kitab faydalar xəzinəsidir. Nəzəri və əməli cəhətdən müəllifin fəzl və kamalına möhkəm dəlildir» (Bakıxanov, 1951).

Bu kitabın bu günə kimi birinci hissəsinə aid cəmi dörd əlyazması məlumdur. Onlardan biri Sankt-Peterburqda Saltıkov-Şedrin adına kütləvi kitabxananın əlyazmaları fondunda, ikisi keçmiş SSRİ EA Şərqşünaslıq İnstitutunun əlyazmalar fondunda, dördüncüsü isə Tehrandakı «Məclis» kitabxanasında saxlanılır.

«Riyazüs-səyahə» kitabında ən maraqlı coğrafi məqamlardan biri Yer kürəsinin forması və dünya ölkələri və dənizlərinin ilk dəfə olaraq yeddi iqlim üzrə bölünməsi sxeminin verilməsidir. Məşhur rus alimi B.Dorn «Riyazüs-səyahə» əsərinə böyük maraq göstərmiş və onu dövrünün ən zəngin tarixi-coğrafi mənbəyi hesab etmişdir.

Çox maraqlıdır ki, M.Vorontsov tanınmış tədqiqatçı N.Xanıkova o kitabın ən yaxşı yerlərini, xüsusilə Zaqafqaziyaya aid olan hissəsini tərcümə etməyi, Şirvaninin əsərlərini axtarıb tapmaq və onun haqqında məlumat toplamaq üçün onun adından Rusiyanın İrandakı səfirinə rəsmi məktub yazmağı tapşırır. Səfir, öz növbəsində, M.Vorontsova 1850-ci ildə məşhur «Riyazüs-səyahə» adlı coğrafi əsərin üzünü köçürüb göndərdiyini yazmışdır (Kərəmov, 1977).

Əsərdə əksini tapmış XIX əsrin əvvəllərində İranın və qonşu ölkələrin mövcud coğrafi şəraitləri və ayrı-ayrı yaşayış məntəqələri haqqındakı məlumatlar xüsusilə maraqlıdır. Çünki bunlar həmin dövrün coğrafi reallığı ilə müasir coğrafi proseslərin inkişaf dinamikasını müqayisə etməyə böyük imkanlar yaradır.

Böyük elmi və tarixi əhəmiyyətə malik olan kitabın ikinci hissəsi bu yaxınlara qədər elm aləminə məlum deyildi. 140 ildən artıq müddətdə aparılan axtarışlar heç bir nəticə vermədiyindən, onu itmiş və ya məhv edilmiş sayırdılar. Lakin görkəmli tədqiqatçı Ağamir Quliyev ədəbiyyatlarda olan bəzi qeydlərə əsaslanaraq əsərin yeganə nüsxəsinin Britaniya muzeyində saxlanıldığını müəyyən etmişdi. Sonradan Azərbaycan EA-nın təşəbbüsü ilə əsərin fotosurəti Britaniya muzeyindən alınıb gətirilmiş və xalqımızın qədim tarixi-coğrafi yaddaş mənbəyi kimi istifadəyə verilmişdir (Quliyev, 1969).

H.Z.Şirvaninin ikinci böyük əsəri «Bustanüs-səyahə»dir. Əsər öz dövrü üçün çox böyük tarixi-coğrafi mənbə sayılır. Burada da müasir dünyamızın tarixi-coğrafi hadisələri, müəyyən dövrlərin coğrafi salnamələri yığcam şəkildə şərh olunmuşdur.

H.Z.Şirvani «Riyazüs-səyahə» və «Bustanüs-səyahə» kitablarında ayrıca başlıq altında coğrafiya elminin ən mürəkkəb və qlobal sahəsi olan dünyanın iqlim zonalarının təsvirini vermişdir. O, iqlim zonalarının elmi mahiyyətini və coğrafi səciyyəsini təhlil etmədən birbaşa iqlim sözünün izahını verməyə çalışmışdır. Müəllif ilk dəfə olaraq dünya coğrafiyaşünaslarının ilkin fikirlərini inkişaf etdirərək dünyanın çox hissəsinin dənizlə örtüldüyünü qeyd etmişdir. Eyni zamanda öz müşahidələrilə təsdiq etmişdir ki, Yer kürəsindəki quru sahə dörd böyük hissəyə bölünür. Lakin səyyah elmi yanlışlığa yol verərək yazır ki, qurunun yarısı ekvatordan cənubda yerləşir. Əslində isə Yer kürəsində qurunun çox hissəsi ekvatordan şimalda yerləşir. Hətta H.Z.Şirvani İndoneziya adalarına səyahət edərkən ekvatorun özündə olmuş və ondan cənub tərəfə də keçmişdir. Nəticədə ekvatordan cənubda yerləşən quru sahələrinin coğrafi cəhətdən əlverişsiz olduğunu göstərmişdir.

H.Z.Şirvani öz yazılarında coğrafi «zona» və «qurşaq» ifadələrini işlətməmişdir. Lakin özünün coğrafi mülahizələrinin nəticəsi olaraq Yer kürəsində iqlimin şimaldan cənuba doğru qlobal zonallıq prinsipini ilk müəyyən edənlərdən biri olmuşdur.

Qeyd etmək lazımdır ki, Şirvanidən xeyli əvvəl yunan və Şərq coğrafiyaşünasları tərəfindən şərq yarımkürəsinin şimal yarısında yeddi iqlim zonasının olması göstərilmişdir. Lakin H.Z.Şirvaninin üstünlüyü ondandır ki, o, iqlim zonalarının tutduğu ərazilərin çox hissəsini şəxsən özü gəzmiş və müşahidə etdiyi iqlimi olduğu kimi təsvir etmişdir. Lakin o zamanlar hələ meteoroloji müşahidələr aparmaq üçün lazımi alətlər olmadığına görə səyyahın coğrafi mülahizələrinin nəticələri şərti xarakter daşımışdır.

Bunlara baxmayaraq, H.Z.Şirvani «iqlim zonaları»nın təsvirini verərkən dünyanın şimal yarımkrüəsi üçün ən uzun gündüzün neçə saat olduğunu da qeyd etmişdir. O vaxtkı bölgü üzrə H.Z.Şirvani tamamilə düzgün olaraq «birinci iqlim» zonasında ən uzun gündüzün 13 saat, ən sonuncu iqlim zonasında isə 15 saat olduğunu müəyyən etmişdir (Kərəmov, 1977).

Şirvani ayrı-ayrı zonaların coğrafi səciyyəsini verərkən müəyyən dərəcədə o yerlərin təbii şəraiti, faydalı qazıntıları, təsərrüfatı, hətta orada yaşayan xalqların məişəti haqqında da məlumatlar verirdi. Bu məlumatların bəziləri indi də Azərbaycanda coğrafiya elminin təkamülündə və formalaşmasında ilkin coğrafi fikir kimi müəyyən qədər öz əhəmiyyətini saxlayır.

«Bustanüs-səyahə» əsəri elmi fikirlərlə yanaşı, həmçinin çox qiymətli hikmətli, nəsihətli sözlərlə dolu olan zənqin bir xəzinədir. H.Z.Şirvani, öz dövrünün çox böyük tərəqqipərvər ziyalısı kimi, arzu etmişdir ki, kişilər də, qadınlar da

elm ardınca getsinlər. O, biliksiz adamı işıqsız közə oxşadır və yazır ki, elm – işıq, elmsizlik isə qaranlıqdır. Şirvani «Əlindən pislik gəlməyən, özü etmədiyini başqalarına məsləhət bilməyən» adamları çox qiymətləndirirdi. Daha sonra o, yazır: «Mənsəb xatirinə elm ardınca gedərsənsə, aqibətini boş zəhmət və bədbəxtlik bil». «İnsan nə qədər elmə yiyələnsə, nə qədər bu sahədə yüksəlsə, yenə də az şey bilir, bu və ya digər cəhətdən biliyi çatmır, onu təkmilləşdirməkdə başqa böyük bir alimin köməyinə ehtiyacı vardır» (Kərəmov, 1977).

Bu hikmətli sözlərin məntiqi mənası bir daha insanların təfəkkür davranışına “iki eşit, bir danış” mədəniyyətinin aşılanmasını tələb edir. Və yaxud “kimdə ki həlimlik yoxdur, o, div və yırtıcı heyvandır”. Çünki həlimlik divi zəncirləyir kimi kəlamları çoxdan ulu babalarımızın tarixi davranış sınağından müvəffəqiyyətlə çıxmışdır.

H.Z.Şirvaninin ən böyük əsərlərindən biri də «Kəşfül-maarif»dir. O, bu əsərini 28 il səyahət etdikdən sonra yazmışdır. Şirvani bu əsərində müxtəlif ölkələrin coğrafiyasını, xalqların təhsil və mədəni-maarif keyfiyyətlərini təhlil etmişdir.

Qeyd etmək lazımdır ki, H.Z.Şirvaninin dünyanın coğrafiyası haqqındakı təsəvvür və fikirlərini müasir elmin tələbləri baxımından tam doğruluğunu qəbul etmək olmaz. Lakin onun əsərləri ilkin tarixi-coğrafi mənbə kimi qiymətli və əvəzedilməzdir. Onun əsərlərindəki elmi mülahizələrlə yanaşı, nəsihətli sözlər, aforizmlər, tarixi-coğrafi materiallar, fikirlər öz elmi-mənəvi dəyərini indiyə kimi saxlayıb və bundan sonra da saxlayacaqdır.

## ƏDƏBİYYAT

BAKIXANOV, A.A. 1951. Gülustani-İrəm. Azərnəşr. Bakı. 220.
KƏRƏMOV, N.K. 1977. Qırx il səyahətdə. Azərnəşr. Bakı. 183.
QULIYEV, A. 1969. H.Z.Şirvani haqqında yeni sənədlər. *Azərbaycan SSR EA-nın məruzələri*, 2, 100-104.
MEHRƏLİYEV, E.Q. 2005. Əbdürrəşid Bakuvi. Bakı. “Elm” qəzeti. 9.

***Məqaləyə c.e.d. E.K.Əlizadə rəy vermişdir***